# Çexiya parlamenti Deputatlar Palatasının sədri Azərbaycana rəsmi səfərə gəlib



Çexiya parlamenti Deputatlar Palatasının sədri Yan Hamaçekin rəhbərlik etdiyi nümayəndə heyəti martın 13-də Azərbaycana rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda Çexiya parlamenti Deputatlar Palatasının sədrini Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Valeh Ələsgərov qarşılayıb.

Jurnalistlərə müsahibəsində Yan Hamaçek Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirib. Çexiyanın bir çox sahələrdə Azərbaycanın güclü tərəfdaşı olduğunu vurğulayan Deputatlar Palatasının sədri ölkələrimiz arasındakı əməkdaşlığı yüksək qiymətləndirdiklərini söyləyib.